# Doğma yurda qayıdış haqqımızdır

**İndiki Ermənistan ərazisi Azərbaycan türklərinin torpağı, burada yaşayanlar isə soydaşlarımız olmuşdur. Rusiya dövləti 1828-ci ildə İrandan 40 min, Türkiyədən 90 min ermənini gətirib İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində yerləşdirdi. 1828-ci il martın 20-də müsəlmanların Novruz bayramı günü rus çarı I Nikolay əmr verib İrəvan xanlığını erməni vilayəti elan etdi.**



Vilayətə gətirilmiş ermənilər özlərinə münasib, azərbaycanlı camaatına ziyan vuran yerlərdə yerləşdirildi. O vaxtlar azərbaycanlılar tərəkəmə idi və heyvandarlıqla məşğul olurdular, buna görə də qəsddən ermənilər Araz ətrafı və başqa yerlərdə azərbaycanlıların yataq yerlərində yerləşdirilirdi. Bu isə erməni-müsəlman ziddiyyətlərinə səbəb olurdu. Həmin vəziyyəti qaydasına salmaq üçün bir sıra xan və bəylər birlikdə Rusiyanın İrandakı səlahiyyətli səfiri və bu işin təşkilatçısı olan Qriboyedovun yanında olub müsəlmanların tərəkəmə vəziyyətində olan və gətirilən emənilərin onların yay-qış yataqlarında yerləşdirilməməsini xahiş etdilər. Onlar Qriboyedovla müəyyən şərtlərlə razılığa gəldilər. Qərbi Azərbaycanda yaşayan uzaqgörən babalarımız hələ o vaxtlar başa düşürmüşlər ki, ermənilər harada yerləşirlərsə, bir azdan sonra deyir bu yer, bu kilsə mənim ulu babamın olub.

Necə ki, indi bizim gözümüzün qabağında dünyaya car çəkib şər-böhtan atırlar ki, güya Qarabağ onların olub. Ona görə də qəbul olunmuş şərtlərə əməl edən ağsaqqallar gətirilmiş erməniləri yerləşdirdilər. Hansı ki, Araz çayından 5-6 kilometr aralı olan XII-XIII əsrlərdə tikilmiş Xovirab kilsəsi ətrafında yox, Araz çayından 20-25 kilometr aralı olan Vedi rayonunun ən az məhsuldar, nisbətən çox su qıtlığı çəkən bir daşlı-qumlu dağın dibində uzun illər həmin dağın daş-qumundan sement istehsal olunurdu. Sonra hayları Dəvəli, Reyhanlı kəndlərində, eləcə də İlan dağının döşündəki Zincirli kəndində və tarixən cəhənnəm dərəsi adlanan, elə indi də Cəhənnəmdərə adı ilə məşhur olan dərənin başında Çanaxçı, Qaşqa, Keşişverən kəndində yerləşdirdilər.

Qərbi Azərbaycanın Qəmərli rayonunda isə Arazdan daha çox aralı olan İmancalı, Göyləsər, Toxançalı, Qəmərli, Yuva, Ayaslı, Uğurbəyli, Dəllər kəndlərində ermənilər yerləşdirildilər. Onlardan 3-6 kilomter aralıda isə Şıxlar, Kiçik Vedi, Qaralar, Almənməd, Sabunçu və başqa azərbaycalı kəndləri var idi.

1820-30-cu illərdə xaricdən gətirilən ermənilərin bir hissəsi Dərələyəz zonasında iki rayon Keşişkənd və Paşalı rayonlarında məskunlaşdırıldı.

İrəvan ətrafında olduğu kimi, Göyçə gölü ətrafında da əhali ən sıx yerləşmişdi. 1919-cu ilə kimi bu zonada 100 kənd olmuşdur. Bu kəndlərdən 40-ı erməni kəndi idi.

Ermənilər öz havadarlarının köməyi ilə XX əsrin əvvəllərində Göyçə gölü ətrafında Basarkeçərin Qamışlı, Qırxbulaq, Tüskülü, Aşağı Zağalı, Gödəkbulaq, Alçalı, Kolan qırılan, Alqırıq, Avdalağalı, Zolaxaç, Qaranlıq, Gözəldərə, Tab, Başkənd, Kəvər, Ördəkli və başqa kəndlərdə yerləşdirilirdilər.

1918-1920-ci illərdə erməni vandalları Qərbi Azərbaycanın İrəvan xanlığı, Amasiya, Göyçə, Dərələyəz, Lori-Pəmbək, Qaraqoyunlu, Zəngəzur, Vedi və digər ərazilərində analoqu olmayan qırğınlar törətmiş, evləri, məscidləri yandırmış, insanları zülm və işgəncə ilə qətlə yetirmişlər. Ermənilər özlərinə güvənsə də, cəllad Silikyanın başçılıq etdiyi quldur dəstəsi müsəlmanlar tərəfindən tamamilə məhv edilmişdir.

Basarkeçər rayonunun Zod, Ağkilsə, Daşkənd, Qızılvəng kəndlərində köhnə alban kilsələri var idi.

Erməni tarixçisi akademik A.İ.Novhannesyan özünün 1964-cü ildə nəşr etdirdiyi kitabının I hissəsində yazırdı ki, XVIII əsrdə, 1800-ci illərdə indiki İcevan şəhərində yaşayan əhalinin 75 faizi azərbaycanlılar, 25 faizi isə ermənilər olmuşdur. Eləcə də bütün Ermənistanda yaşayan əhalinin 73,8 faizi azərbaycanlılar, 26,2 faizi ermənilər və başqa millətlər olmuşdur. Həmin dövrdə Ermənistanın Abaran və Ələyəz rayonlarında yezidi kürdlər yaşayırdılar.

1988-ci ilədək Qərbi Azərbaycanın Basarkeçər rayonunda 29 azərbaycanlı və 5 erməni kəndi var idi. Ermənistanın sovetləşməsindən sonra doğma yurdlarından qovulmuş azərbaycanlıların bir qismi yenidən doğma ata-baba yurdlarına qayıtmışlar.

Sovetlər İttifaqı dövründə erməni bolşevikləri öz çirkin əməllərindən əl çəkməmiş, həmişə "dənizdən-dənizə böyük Ermənistan" xülyasını reallaşdırmağa çalışmış, azərbaycanlılar sıxışdırılmış, gənc azərbaycanlı kadrların seçilib yerləşdirilməsinə ögey münasibət göstərilmişdir. Azərbaycanlıların hüquqlarının pozulmasına Moskvadakı ermənipərəst qüvvələr də göz yummuşdular.

Ermənilər 1948-1953-cü illərdə İ.Stalini və İ.Molotovu öz torlarına salmış, xaricdən gətirilən hayları yerləşdirmək bəhanəsi ilə Qərbi Azərbaycanda yaşayan 150 min azərbaycanlını öz tarixi-etnik torpaqlarından köçürməyə nail olmuşdular. Köçürülmə 1953-cü ildə İ.Stalinin ölümündən sonra dayandırılmışdır.

Ötən əsrin 80-ci illərinin əvvəllərində haylar yeni bir xəyanət toru hazırlamış, onlar uydurma Qarabağ məsələsini ortaya ataraq İrəvan şəhərində mitinqlərə başlamış, daşnak ideologiyası genişlənmiş, ən nəhayət, 1988-ci ilin noyabr-dekabr aylarında 300 min azərbaycanlı zülm və işgəncələrə məruz qalaraq doğma yurdlarını məcburən tərk etmişlər.

Artıq 37 ildir ki, Qərbi azərbaycanlılar vətən həsrəti ilə yaşayırlar. Onlar əmindirlər ki, Qərbi Azərbaycana Qayıdış Konvepsiyası reallaşacaq, XXI əsrin qarşıdakı illərində Dilican dərəsinə, Amasiyaya, Göyçə mahalına, İrəvan şəhərinə, Dərələyəzə, Zəngəzura və digər yurd yerlərinə dönəcək, türk oğulları öz tarixi torpaqlarında ləyaqətlə yaşayacaqlar.

**Xalıqverdi HACIYEV,**
**Gəncə şəhəri, təqaüdçü.**

Respublika.- 2025.- 31 may (№112).-